**Yaponiya vizası almış və ya almağı planlaşdıran şəxslərin nəzərinə,**

***29 aprel,2020-ci il,tarixində yenilənmişdir: Viza ilə bağlı tətbiq olunan məhdudiyyətlər 31 may tarixindək uzadılmışdır.***

Yeni koronovirusun geniş yayılmasının qarşısının alınması məqsədiylə, Yaponiyaya giriş üzrə tədbirlərin daha da ciddiləşdirilməsi qərara alınmışdır.

Bununla əlaqədar, 3 aprel, 2020-ci il 00:00 tarixindən (Yaponiya standart vaxtı) **may ayının sonunadək (bu tarix uzadıla bilər)** Yaponiyanın Azərbaycan Respublikasındakı Səfirliyi tərəfindən 2 aprel və ondan öncəki tarixlərdə verilmiş viza ilə Yaponiyaya daxil olmaq mümkün olmayacaqdır. Bunu nəzərə almağınızı xahiş edirik.

Bu məhdudiyyətin nə zamana kimi davam edəcəyi məlum olmasa da, məhdudiyyət aradan qaldırılandan sonra vizanızın keçərlilik tarixi qüvvədə olduğu təqdirdə Yaponiyaya səyahət edə bilərsiniz.

Çoxdəfəlik giriş vizasına malik olan şəxslər də eyni qaydada 3 aprel tarixindən müəyyən müddətədək Yaponiyaya daxil ola bilməyəcəkdir. Məhdudiyyətlərin aradan qaldırılmasından sonra vizanın keçərlilik tarixi qüvvədə olduğu təqdirdə Yaponiyaya giriş edə biləcəklər.

Məhdudiyyət aradan qaldırıldıqdan sonra vizalarının keçərlilik müddəti bitən şəxslərdən bir daha səfirliyimizə viza üçün müraciət etmələri xahiş olunacaqdır.

Son hadisələrdən dolayı yaranmış bu cür narahatçılıqlara görə üzr istəyir, bundan sonrakı vəziyyətə uyğun olaraq sizin anlayışınızı xahiş edirik.

Yaponiyanın Azərbaycan Respublikasındakı Səfirliyi
Konsulluq şöbəsi